# Heca və vurğu

Heca tələffüz zamanı sözün asanlıqla bölünən hissəsidir: *ki-tab-xa-na.*

Hecalardan birinin digərlərinə nisbətən daha qüvvətli deyilməsi vurğu adlanır: *istedád, astronómiya*. Bəzən sözdə vurğunun yeri dəyişdikdə məna dəyişir: *soyutmá – soyútma; búrun – burún*.

**Nümunə 1**

Aşağıdakı sözləri tələffüz edin, hecaların sayını və vurğulu hecanı müəyyənləşdirin.

cəmiyyət, coğrafiya, fizika, televizor, etika, dünən

**Nümunə 2**

Aşağıdakı sözləri mənasına uyğun olaraq cümlədə işlədin.

*qálın, qalín, sǘzmə, süzmə́, gö́zlə, gözlə́, gə́lin, gəlín, də́rin, dərín*

**Nümunə 3**

Verilmiş sözlərin mənasına uyğun olaraq vurğulu hecanı müəyyənləşdirin.

Şaxta – sıfırdan aşağı hava temperaturu, qış havası.
Şaxta – faydalı qazıntıların çıxarıldığı və yeraltı işlərin aparıldığı yer.
Dimdik – quşların ağızlarının irəliyə uzanmış buynuz kimi sərt hissəsi.
Dimdik – çox dik, lap dik, tamam dik.

**Nümunə 4**

Verilmiş sözlərdə hecaların sayını və vurğusunu müəyyən edin.

*cəmiyyət, Türkiyə, biologiya, artilleriya, filosof, diplomatiya, fəaliyyət, dostluq, İngiltərə, Fransa*